# Şəhid Nurlan Mustafayev haqqında "Vətənə bağlı ömür" filmi






**Şəhidin anadan olmasının 35 illiyinə həsr edilmiş tədbir Qərbi Azərbaycan İcmasının (QAİ) Çəmbərək rayonu Gölkənd kənd icması tərəfindən təşkil edilib.**

Ekran işində "Azərbaycan bayrağı" ordenli kapitan Nurlan Mustafayevin həyatı və döyüş yolu, Vətən müharibəsindən kadrlar əks olunub.

Tədbirdə QAİ Çəmbərək rayon İcması sədrinin müavini, Gölkənd kənd İcmasının sədri Tanrıverdi Mustafayev, millət vəkili Arzuxan Əlizadə, QAİ Qadınlar Şurası sədrinin müavini, QA televiziyasının baş direktoru, əməkdar jurnalist Telli Pənahqızı, əməkdar mədəniyyət işçisi Dilarə Əliyeva və başqaları çıxış ediblər.

Şəhidin anası Rahilə Ramazanova bildirib ki, həyatını oğlunun adının yaşamasına, xatirəsinin əbədiləşdirilməsinə həsr edir:

"Övlad acısını ifadə etməyə söz yoxdur. Hər şəhidin arxasınca bir ana da şəhid olur. Biz şəhid anaları acımızı içimizə ataraq Vətən uğrunda özünü fəda edən oğullarımızı fəxrlə, qürurla anırıq".

Gölkənd kənd İcmasının sədri Tanrıverdi Mustafayev bildirib ki, Nurlan Mustafayev 30 illik ömründə 100 ilin hekayəsini, qəhrəmanlığını özündə yaşadıb:

"Nurlanın ata-babaları Qaraqoyunlu dərəsinin Çəmbərək rayonunun Gölkənd kəndindən olub. Bizim həmin kəndimizdən Birinci və İkinci Qarabağ müharibələrində Nurlan Mustafayevlə birlikdə ümumilikdə 20-yə yaxın şəhidimiz var. Biz onlarla qürur duyuruq".

Deputat Arzuxan Əlizadə deyib ki, Azərbaycan torpaqlarını sülh yolu ilə qaytarmaq istədi. Amma nəticə etibarı ilə Nurlan Mustafayev kimi oğulların hesabına müharibədə zəfər qazandı:

"Bu dövlət Nurlan kimi igidləri yetişdirmək üçün çalışdı. Sonda isə qələbə qazandıq. Biz qəhrəmanlarımızla qürur duyuruq".

Xatırladaq ki, Azərbaycan Ordusunun Xüsusi Təyinatlı Qüvvələrinin kapitanı olan Nurlan Mustafayev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində Murovdağın, Füzulinin və Hadrutun azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Nurlan Mustafayev oktyabrın 12-də Hadrut döyüşləri zamanı şəhid olub. II Fəxri xiyabanda dəfn olunub.

Prezident İlham Əliyevin sərəncamı ilə ölümündən sonra "Azərbaycan bayrağı" ordeni, "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilib.

**M.KAMAL,**
**"Respublika".**

Respublika .- 2025.- 22 iyul (№ 149).-